Öncə tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyublar. Sonra qonaqlar Heydər Əliyev Muzeyində, Dövlət Humanitar Kollecində və Humanitar təmayüllü 4 saylı məktəb-liseydə olublar.

Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov tədbiri giriş sözü ilə açaraq kollecin 85 illik yubileyi münasibətilə təhsil ocağında çalışan bütün əməkdaşları təbrik edib, ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan təhsilin inkişafına göstərdiyi xidmətlər və onun layiqli davamçısı ölkə Prezidenti cənab İlham Əliyevin bu sahəyə olan diqqət və qayğısından söz açıb.

Lənkəran Dövlət Humanitar Kollecinin direktoru Cahangir İbrahimov təhsil ocağının 85 ildə keçdiyi həyat yoluna nəzər salıb, pedaqoji kadr hazırlığı istiqamətində aparılan işlər barədə danışıb. C.İbrahimov qeyd edib ki, bu təhsil müəssisəsi ölkəmizin cənub bölgəsində yaradılan ilk orta ixtisas məktəbidir və ötən 85 il ərzində kollecin 52 min məzunu olub.

Təhsil naziri Misir Mərdanov Astara, Lənkəran, Lerik, Masallı, Yardımlı, Cəlilabad və Biləsuvar təhsil işçilərinin iştirak etdiyi konfransda “Regionlarda təhsilin inkişaf perspektivləri” mövzusunda çıxış edib. Cənub bölgəsində fəaliyyət göstərən təhsil müəssisələri barədə ətraflı danışan Misir Mərdanov regionda ümumi orta təhsildə, ali və orta ixtisas məktəblərində qazanılmış uğurlardan, mövcud problemlərdən bəhs edib, məktəbəqədər təhsil müəssisələrinin və peşə təhsilinin inkişafı, eləcə də digər məsələlərlə bağlı qarşıda duran vəzifələri tədbir iştirakçılarının nəzərinə çatdırıb.

Nazir bildirib ki, qocaman təhsil ocağı olan Lənkəran Dövlət Humanitar Kollecinin ölkəmiz üçün müəllim kadrlarının hazırlanmasında xidmətləri böyükdür və bu kollec respublikanın digər təhsil ocaqları sırasında özünəməxsus layiqli yer tuta bilib.

Misir Mərdanov çıxışının sonunda 85 illik yubiley münasibətilə kollecin müəllim-tələbə kollektivini təbrik edib və onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Konfransda Milli Məclis sədrinin birinci müavini Z.Əsgərov, Milli Məclisin deputatları S.Novruzov, H.Rəcəbli, N.Cəfərov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Y.Məmmədov, Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunun rektoru A.Zamanov və başqaları çıxış ediblər.

Konfransın rəsmi hissəsindən sonra N.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrında mükafatların təqdim olunma mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə kollecin direktoru C.İbrahimovun “Əməkdar müəllim” fəxri adına, dil-ədəbiyyat müəllimi E.İsmayılovanın “Tərəqqi” medalına layiq görüldüyünü bildirən təhsil naziri Misir Mərdanov mükafatları onlara təqdim edib.

Mərasimdə eyni zamanda kollecdə çalışan qabaqcıl müəllimlərdən bir qrupuna Təhsil Nazirliyinin “Azərbaycan Respublikası Qabaqcıl təhsil işçisi” döş nişanı, Fəxri fərmanı və hədiyyələr verilib.

Sonda tədbir iştirakçılarına Lənkəran Dövlət Humanitar Kollecinin 85 illik yubileyinə həsr olunmuş konsert proqramı təqdim olunub.